VAQİF YUSİFLİ
Filologiya elmləri doktoru

ZƏNGƏZUR HƏSRƏTİ İLƏ

Asif Muradzadə mənim tanımadığım, heç üzünü görmədiyim bir şəxs idi. Təbii ki, onun qələm əhli olduğu barədə də təsəvvürüm ola bilməzdi. Amma onun "Ayrılığın sonu varmış" romanını oxuyandan sonra ixtisasına görə iqtisadçı olan bu şəxsi həm də bir yazıçı kimi etiraf etdim. Yazıçı olmaq isə heç də o demək deyil ki, bir hadisəni nəql edərək, müəyyən süjet qurub o hadisəni təsvir etdiyini obrazlarda canlandırasan. Bunu azçox savadı olan hər kəs bacara bilər. Yazıçılıq mədəniyyət hadisəsidir - buraya müəllifin bədii təfəkkürü, həyat hadisələrini sənət hadisəsinə çevirmək istedadı əsəs rol oynayır. Yazıçı istər tarixdən yazsın, istərsə də müasir həyatdan... o, canlı, real obrazlar yaratmalı, əsərdəki hadisələrin mahiyyətinə varmalıdır. İlk növbədə, yazdığı əsərdə hansı problemi əks etdirdiyini nəzərə çarpdırmalıdır. Təbii ki, bu prosesdə bədii dil mühüm rol oynayır.

Asif Muradzada "Ayrılığın sonu varmış" romanında məhz yazıçı üçün vacib olan bu şərtlərə əməl edə bilib.



Onun romanının janrını badii tarixi roman kimi səciyyələndirmək olar. Tarixi roman təbii ki, tarixi hadisələr əsasında qələmə alınır və burada tarixi şəxsiyyətlərin həyatı, onların mübarizəsi ön plana çəkilir.

Romandakı hadisələr XX əsrin əvvəllərində baş verir. Müəllif Azarbaycanın ən qədim məskənlərindən biri - Zəngəzurda baş verən ictimai-siyasi hadisələri qələmə alıb. Bu elə bölgədir ki, əbədi-əzəli düşmənimiz olan ermənilər də burada yaşamış və öz mənfur xislətlərinə sadiq qalaraq "mənimsə və hökm sür" işğalçılıq planlarını həyata keçirmişlər. Müəllifin tarixi qaynaqlardan və o hadisələrin canlı şahidi olan insanlardan eşitdiklərindən yaranır əsərdəki reallıqlar.

Hər hansı romanda əsas mənbəyi obrazlar təşkil edir. Elə obrazlar olur ki, onlar xarakter səviyyəsinə yüksəlir, elələri olur ki, əsərdə o qədər də mühüm rol oynamırlar. Amma yazıçının məharəti ondan ibarətdir ki, əsərdə təsvir olunan obrazların hər biri öz bədii yükü ilə diqqəti cəlb etsin, yəni heç bir obraz əsərə təsadüfən daxil edilmir. Asif Muradzadənin romanında həm müsbət, həm də tamamilə mənfi obrazlar silsilə təşkil edir. Hacı Atakişi və Məşədi Fərman romandakı müsbət qüvvələri təmsil edirlər. On- ların hər biri özünəməxsus fərqli xüsusiyyətlərə malikdirlər - əqidələri, məramları bir olsa da Hacı Atakişi romanın sonuna - öz ölümünə qədər müdrik el ağsaqqalı missiyasını yerinə yetirir, Zəngəzurun taleyi ilə bağlı bütün məsələlərə reaksiya verir. Məşədi Fərman isə daha dinamik obrazdır, mərdliyi, qoçaqlığı, hər cür çətin, mürəkkəb vəziyyətlərdən uğur qazanması ilə seçilir, amma həm də gəncliyinə xas olan emosionallığı da var. Onun erməni qızı Anahitə aşiq olması təbii hissdir, amma Anahitin içindəki ermənilik bu sevgini düşmənçiliyə çevirir.

Romanda mənfiliyi təcəssüm etdirən obrazlar da bütün xislətləri ilə canlandırılır. İlk baxışda belə bir təəssürat yaranır.

Bədii ədəbiyyatda hər bir obraz - xüsusilə mənfi olsun, öz fərqli xüsusiyyəti ilə diqqəti cəlb etməlidir. Baqram, Qurgen, Andranik, Anahit, Manvel, Karo - onların məqsəd və qayələri eyni olsa da, müəllif onların hər birinin içindəki erməni xislətini ortaya çıxarır. Romanda təsvir olunan çar-rus məmurlarını da ermənilərdən fərqləndirmək olmur. Əsərdə onların ermənilərin tərəfini tutması aydın qeyd edilir.

Romanın təsvir edildiyi məkan - bu məkanın ayrı-ayrı kəndləri əhatə etməsi də müəllifin coğrafi anlayışlara düzgün riayət etdiyini göstərir.

Romanda maraqlı cəhətlərdən biri də tarixi etnoqrafık incəliklərin, toponimlərin, Zəngəzur ləhcəsinin, klassik danışıq dilinin önə çıxarılmasıdır.

Ümumiyyətlə, məkan məfhumunu nəzərə almamaq olmaz - Zəngəzur həm də bu romanın məcazi mənada baş qəhrəmanıdır.

Romanın sonlarına doğru gedirik və nəsillərin bir-birini əvəz etməsi ilə qarşılaşırıq. Səməyə, Sevindik, Ümid, Çöhrə, Azada ata-babalarından gələn ən gözəl ənənələri davam etdirirlər.

O ki qaldı romandakı tarixi şəxsiyyətlərə - Nəsib bəy Yusifbəyli, Məhəmməd əmin Rəsulzadə, Bəhlul Behcət, Behbud Şahtaxtinski, Molla Məmmədbağır Qazızadə, Əfrasiyab Hacı Əzim oğlu, Qardaşxan (Qaçaq Qardaşxan) romanda az görünsələr də hər halda tarixi reallığı ifadə edirlər.

Asif Muradzadənin "Ayrılığın sonu varmış" romanı böyük Vətən həsrəti ilə qələmə alınıb.

Ümid edirik ki, ayrılığın sonuna Qarabağımızda vardığımız kimi digər itirilmiş torpaqlarımızda da bir zaman həsrətimizə son qoyulacaq.